İSSN - 2221 - 7576

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ КУЛЬТУРЫ И ИСКУССТВ

AZERBAIJAN STATE UNIVERSITY OF ART AND CULTURE

ADMİU

AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

1923

ELMİ ƏSƏRLƏR

УЧЕНЫЕ ЗАПИСКИ

SCIENTIFIC NEWS

№23

www.elmart.admiu.edu.az

BAKI -2017

İSSN – 2221 – 7576

AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ
АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ КУЛЬТУРЫ И ИСКУССТВ
AZERBAIJAN STATE UNIVERSITY OF ART AND CULTURE

ELMİ ƏSƏRLƏR

УЧЁНЫЕ ЗАПИСКИ

SCIENTIFIC NEWS

№ 23

BAKI – 2017

Redaksiya heyəti

Fərəh Əliyeva	sənətşünaslıq üzrə elmlər doktoru, professor
Rəna Məmmədova	sənətşünaslıq üzrə elmlər doktoru, AMEA-nın müxbir üzvü, professor
Timuçin Əfəndiyev	filologiya üzrə elmlər doktoru, professor
Məryam Əlizadə	sənətşünaslıq üzrə elmlər doktoru, professor
Lyudmila Saviç	tarix üzrə elmlər doktoru, professor (Rusiya)
Gülnaz Abdullazadə	fəlsəfə üzrə elmlər doktoru, professor
İsrafil İsrafilov	sənətşünaslıq üzrə elmlər doktoru, professor
İlham Rəhimli	sənətşünaslıq üzrə elmlər doktoru, professor
Niyazi Mehdi	fəlsəfə üzrə elmlər doktoru, professor
Əlikram Tağıyev	fəlsəfə üzrə elmlər doktoru, professor
Aqşin Babayev	filologiya üzrə elmlər doktoru, professor
Nizaməddin Şəmsizadə	filologiya üzrə elmlər doktoru, professor
Kübra Əliyeva	sənətşünaslıq üzrə elmlər doktoru, professor
Cəmilə Həsənzadə	sənətşünaslıq üzrə elmlər doktoru, professor
Ramiz Zöhrabov	sənətşünaslıq üzrə elmlər doktoru, professor
Mübariz Məmmədli	filologiya üzrə fəlsəfə doktoru, dosent

Baş redaktor

Məryam Əlizadə	sənətşünaslıq üzrə elmlər doktoru, professor

Redaktor

Gülşən Əliyeva-Kəngərli	filologiya üzrə elmlər doktoru, professor

Məsul katib

Yeganə Əliyeva	kulturologiya üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının 11 iyul 2017-ci il, 9 saylı qərarı ilə nəşr olunur.

Təsisçi: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti.
Jurnal ildə iki dəfə çap olunur.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Əsərləri. №23
Bakı, 2017, 210 səh.

Ünvan: AZ – 1065, Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 39.
Адрес: AZ – 1065, Республика Азербайджан, город Баку, пр. Строителей 39.
Adress: 39, İnshaatchılar avenue, Baku, Azerbaijan Republic, AZ – 1065.
Tel: (994 12) 438-76-06,
Fax: (99412) 438-93-48

©ADMİU, 2017

Sahələr üzrə redaksiya komissiyaları:

- **Kulturologiya ixtisası üzrə**: pedaqogika üzrə fəlsəfə doktoru, dosent Yeganə Eyvazova (sədr), fəlsəfə üzrə elmlər doktoru, professor Niyazi Mehdi, kulturologiya üzrə fəlsəfə doktoru, dosent Sədaqət Əliyeva, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Tamilla Əhmədova, kulturologiya üzrə fəlsəfə doktoru, dosent Yeganə Əliyeva, sənətşünaslıq üzrə fəlsəfə doktoru Nigar Sultanlı

- **Teatr sənəti ixtisası üzrə:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Aydın Talıbzadə (sədr), sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Rafiq Sadıqov, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Gülşən Həmidova, sənətşünaslıq üzrə fəlsəfə doktoru Fəridə Cəlilova, müəllim Elçin Cəfərov;

- **Kino, televiziya və digər ekran sənətləri ixtisası üzrə**: filologiya üzrə elmlər doktoru, professor Aqşin Babayev (sədr), fəlsəfə üzrə elmlər doktoru, professor Dilarə Mehdi, dosent Həmidə Ömərova;

- **Təsviri sənət ixtisası üzrə:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Aslanova (sədr), sənətşünaslıq üzrə elmlər doktoru, professor Cəmilə Həsənzadə, professor Arif Əzizov, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Bayram Hacızadə, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Mehriban Novruzova

- **Musiqi sənəti ixtisası üzrə:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Kamilə Dadaşzadə (sədr), sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ellada Hüseynova, sənətşünaslıq üzrə fəlsəfə doktoru Səbinə Mehdiyeva, sənətşünaslıq üzrə fəlsəfə doktoru Cəvahir Mustafayeva, baş müəllim Gülnar Verdiyeva

Jurnal Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin 30 aprel 2010-cu il tarixli iclasında (protokol N 10-R) «Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin siyahısı»-na daxil edilmişdir.

MÜNDƏRİCAT

KULTUROLOGİYA

Sədaqət Əliyeva. Müasir Azərbaycanda qadın fenomeni tədqiqatlarının metodoloji araşdırmaları.....6
Xaliq Dadaşov, Adil Sadıxov. Mədəniyyət, inkişaf və qloballaşma.....14
Cavid Ələkbərli. İspan millətinin mentaliteti.....21
Nərgiz Yaqubova. XX əsrin sonu-XXI əsrin əvvəllərində Azərbaycanda identifikasiya böhranı.....26
Sahib Vəliyev. Azərbaycanlılara qarşı törədilən soyqırım siyasəti.....32
Aypara Məmmədova. Almas İldırımın vətən təəssübkeşliyi.....41
Leyla Zeynalova. Azərbaycan xalq bayramları.....50

TEATR SƏNƏTİ

Aidə Qafarova. AZTC və tamaşaçı münasibətləri.....58
Roza Allahverdiyeva. Bir ömrün salnaməsi – Əziz Nesin.....63
Эмиль Азизов. Формирование национальной хореолексики в балете «Девичья башня» А.Бадалбейли.....70
Rüstem Mürseloğlu. Tolstoy`un sanat kuramı və tiyatrodan yansımaları.....75

KİNO, TELE VƏ DİGƏR EKRAN SƏNƏTLƏRİ

Dilarə Hüseynova. Azərbaycanda səssiz kinonun poetikası.....85
Huseyn Cavadzadə. Mirzə Cəlilin "Ölülər" pyesinin ekran taleyi – pyes və ekranlaşdırma arasındakı paradoksallıq..... 92
Bəhruz Niftəliyev. Teleməkanımızda tok-şoular: problemlər və nöqsanlar.....97
Səidə Baxşıyeva. Postsovet məkanında karnavalın pozitiv və neqativ aspektləri musiqi sənəti.....103

MUSİQİ SƏNƏTİ

Нурида Исмаил-заде. Роль и значение русской оперной традиции в создании азербайджанского профессионального музыкального искусства.....101
Arzu İsmayılova. Müxtəlif növ polifonik fakturanın öyrənilmə xüsusiyyətləri....112
Gülyanaq Məmmədova. Azərbaycan xalq musiqisinin öyrənilməsində bir sıra müqayisəli aspektlər haqqında.....116
Rüxsarə İbrahimova. Qara Qarayevin fortepiano yaradıcılığında polifonik forma və janrlar.....120

TƏSVİRİ SƏNƏT

Tərlan Mehdiyeva. Venesiya Bienali tarixi.....125
Elfanə Qasımova, Gülçöhrə Salehzadə. Использование традиционных национальных черт костюма в современной одежде.....135
Bayram Hacızadə. 1980-1991-ci illərdə "Kirpi" satirik jurnalında dərc olunmuş dostluq şarjları.....140
Nigar Yunus. Nizami Gəncəvinin Xəmsəsi "Gülüstan sarayı"-nın kaşi (kirəmit) işləmələrində.....147
Səbinə Tutayuk. Gülüstan türbəsinin dekor həllində daş oyma üsulundan istifadəsinə dair.....152
Nərminə Vəliyeva. Salhab Məmmədovun həyat yolu və yaradıcılığında heykəltaraşlıq əsərlərinin yeri.....158
Fərhad Yüzkec. XX əsr Türkiyə rəngkarlığının təşəkkülünə qərb rəssamlıq meyllərinin təsiri.....165
Xanımbacı Məmmədova. Xalq Rəssamı Yusif Hüseynovun plakat əsərləri.....171
Günay Ağabəyli. Azərbaycan milli rəngkarlığında Cavad Mircavadov yaradıcılığının rolu.....176
Diləfruz Bağırova. Azərbaycanda XVIII-XIX əsrlərdə qəbirüstü abidələrin bədii xüsusiyyətləri.....180
Aygün İsmayıllı. Miniatür sənətinin tarixi və mahiyyəti.....189
Nərmin Kərimli. Ənənəni yaşadan sənətkar Fəxrəddin Məmmədvəliyev.....193
Sevinc Cəfərova. XX əsr Azərbaycan memarlığının inkişafında Avropa memarlıq ənənələrinin təsiri (Bakı şəhəri ərazisi əsasında).....198

TƏSVİRİ SƏNƏT

UOT 7 (4/9)

Tərlan Mehdiyeva
Sənətşünaslıq üzrə fəlsəfə doktoru
Akdeniz Universiteti
Türkiyə, Antalya, Pınarbaşı Mahallesi, Dumlupınar Blv., 07058
E-mail: terlanm@gmail.com

VENESİYA BİENALİ TARİXİ

Xülasə: Venesiya Bienalinin tarixi, əhəmiyeti, müasir dünya sənətinin inkişafına göstərdiyi müsbət təsiri bilinen bir həqiqətdir. Bienalin istər universallığı, avanqard cərəyanların dünyada tanınması və inkişafı etməsi olsun, istərsə də keçirildiyi ölkənin iqtisadiyatına, turizmin inkişafındakı rolu baxımından nə qədər əhəmmiyət kəsb etdiyi vurqulanaraq oxucuları məlumatlandırmaq məqsədi ilə mövzu ələ alınmışdır. Venesiya Bienalinin qısa tarixi haqqında məlumat verildikden sonra, sadəcə təsviri sənət deyil, eyni zamanda kino, teatr, musiqi sahələri də ilk dəfə Venesiya Bienalinə daxil edilərək, bienallərin müxtəlifliyi baxımından zənginləşdirildiyi üzərində durulmuşdur. Venesiya Bienali qurumu içərisinə sənətin bir çox sahələrini də alaraq, 20-ci əsrdəki inkişaf tarixi və müasir dünya sənətinin siyasət, iqtisadiyatla bütünləşməsi məqalənin ana xəttini təşkil edir.

Açar sözlər: Venesiya bienali, beynəlxalq, 20-ci əsir, çağdaş, aktual sənət, siyasət, iqtisadiyat

Bienal - Fransızça "hər bir digər il" anlamına gələn və iki ildə bir təşkil olunan tədbirlərə verilən isimdir. Daha çox mədəniyət vəədəbi fəaliyətlərdə istifadə olunan bir termindir. Ən qədim bienal 1895-ci ildə təşkil olunmuş Venesiya Bienalidir.

Venesiya Bienali, İtalya kralı Umberto və həyat yoldaşı Savay Marqarita evliliklərinin gümüş ilini (yəni evliliklərinin 25-ci il dönümü) qeyd etmək üçün 1893-cü ildə kralın ortaya atdığı bir fikirdir. Ancak bu tədbir 1895-ci il aprel ayının 30-da həyata keçirilmişdir. Beləliklə ilk Venesiya Bienali olaraq tarixə keçmişdir.

Qavram sənətinin ortaya çıxışı; göstəri, vücüd sənəti, çevrə sənəti, yerüzü sənəti, yoxsul sənət , süreç sənəti və vidio sənəti ilə birlikdə 'maddədən sonraki sənət, olaraq sıralana bilər bienal. Bundan başqa bienallər; şərq ilə qərbi birləşdirmək ya da iki qitədə yaşayan sənət və sənətsevərlərin bir yerdə, ortaq bir tədbirdə iştirak etmək məqsədi

üçün düşünülmüşdür də, deyə bilərik. Bu fikir bir çox ölkələrin sənətçilərinin və sənətsevərlərinin bir yərə toplanması son dərəcə əhəmiyətli və təsirli olmuşdur. Bütün bu bienaller universallığı əks etdirmək məqsədi daşıyırdı.

Venesiya Bienali iki ildə bir, tək sayı ilə bitən illərdə həyata keçirilir. Təməlində sənaye inqilabından sonra ölkələrin ticarət, iqtisadiyat sahəsində sürətlə inkişafı və istehsal olunmuş məhsullarını sərqiləyə bildikləri yeganə məkanlar dünya fuarları və sənət qalereyaları idi. Bu fuarlarda eyni zamanda ölkələr milli kimliklərini tanıtma imkanı əldə edirdilər. Sonrakı tarixlərdə isə təşkil olunan sənət sərgiləri, bienal fikrinin ilk mərhələsi hesab edilməkdədir.

1895-ci ildə 'Birinci Beynəlxalq Venesiya Sənət Sərgisi' adı ilə ilk bienalde dekoratif sənət nümuneleri önəmli rol oynamışdır. Sərgidə on iki ölkədən 150 sənət əsəri sərgilənmiş və təxminən 200 000 izləyici sərgini ziyarət etmiş, sərginin və tədbirin sonunda əsərlərin yarısı satılmışdır. Bu sərgiyə Giacoma Grosso'un "İlahi Toplantı" tablosu (Şəkil 1) həm teması, həm də rənklərinə görə bütün əsərlərdən seçilmişdir. Esər böyük mübahisələrə səbəb olaraq tənqid edilmiş, eyni zamanda ən çox dikkət mərkəzində olmuşdur.

20-ci əsrin ilk onilliyində daha da beynəlxalq xüsusiyət kəsb etmişdir. 1901-ci ildəki bienaldə Fransız sənətçiəlrinin əsərəlri də sərgilənmişdir. K.Corot, F.Millet və özəlliklə O.Rodinin 20 heykəlindən ibaərt fərdi sərgisi böyük nailiyət qazanmışdır.

1907-ci ildə Dyaqilevin2 yardımıyla bienaldə İ.Repinin və rus baletinin məşhur geyim üzrə tərtibatçı rəssamıBakstın23əsərləri sərgilənmişdir. Yenə bu bienalldə İlk dəfə simvolizm cərəyanının "Röyaların Sənəti" adı altında sərgisi açılmışdır.


1907-ci ildən sonra bir çox ölkə Venesiyada öz milli pavilyonlarını açmağa başlamışdır. İlk olaraq Belçika, İngiltərə, Almaya, Macarıstan, Fransa, İveçrə, Hollandiya, Danimarka və Rusya ölkə pavilyonlarını Venesiyada qurdular.

1910-cu ildə G.Klimt, O.Renoir və G.Courbetin retrospektif sərgiləri açılmışdır. 1914-cü ildə Expresyonistlər G.Ensorun fərdi sərgisi ilə Bienalə qatıldılar. 1914-cü ildə Pro Arte pavilyonunun cəphəsi bərpa edildi və Rusya pavilyonu da əlavə olunaraq böyük bir törənlə açıldı. Beləliklə Giardinidəki ölkə pavilyonunun sayısı İtalyan Pavilyonu xaric yeddiyə yüksəldi. Birinci Dünya Müharibəsi səbəbiyə 1916-1918 illəri arasında Bienal sərgiləri ara verdi. Ancaq Birinci Dünya Müharibəsindən sonra Bienal modern sənətdəki yenilikçi cərəyanlara maraq göstərməyə başlamışdır. İki Dünya Müharibəsi arasındaki illərdə bir çox önəmli modern sənətçi bu etkinliklərde işlərini sərgiləmişdir.

1920-Hökümət komissiyasından Munzino Vitelli, Giovanni Bordigani sədr təyin etdi. Bu təyinatla Venesiya Bələdiyə sədri ilə Bienal sədri arasında ilk ziddiyət baş verdi. Həmin il Empresyonizm cərəyanına heyran olan Vittoriya Picanın sədr təyin olunduqdan sonra, Bienaldə ilk dəfə avanqard sənət əsərleri sərgilənməyə başlamışdır. Fransız pavilyonunda P.Signac, P.Cezanne, G. Seurat. O.Redon, H.Matiss

[2]Serqey Dyaqilov (1872-1929) Rusiyada "Sənət Dünyası" qrubunun təməlini atan, Rusiyanı ilk dəfə dünya seənət arenasında, xüsusiylə də Rus baletinin dünyada tanınmasında böyük xidməti olan Tus teatr ve incəsnət xadimi. https://ru.wikipedia.org/ /wiki/Дягилев

[3] Leon Bakst (1866-1924) əsil adı Leyb-Xaim İzrayloviç Rozenberq, S. Dyaqilovla birlikdə Rusiyada "Sənət Dünyası" qrubunun qurucusu, rəssam, səhnə tərtibatçısı, qrafik. https://ru.wikipedia.org/wiki/Леон_Бакст



Şəkil 2.Van Gogh. Otaq. 1888. k.ü.y.b


sərgiəlnirkən, Danimarka pavilyonunda V.Goghun retrospektiv sərgisi (Şekil 2), İsviçrə pavilyonunda F.Hodler sərgilenmişdir.

1922- Afrikalı bir sənətçinin heykəl sərgisi ilə A.Modilyaninin ilk retrospektif sərgisinin açılması, bir çox təngidə yol açmışdır. Picanın bu 'özbaşınalığının' qarşısını almaq üçün əvvelcə yeddi üzvdən ibaərt bir idarə etme qurulu təhsis olundu. 1924-cü ildə qurul üzvləri səkkiz nəfərə, 1926-cı ildə isə on üç nəfərə yüksəltildi. 1930-cu ildə isə qurul tamamən ləğv olundu.


1927- Sədr Pica, Palazzo Ducale adlı böyük bir mağazanın zəmin qatını Bienal üçün sərbəst bir mekan olaraq istifadəyə açdı. 1928-də Bienalin ilk arxiv çalışmalarını toplayaraq, 1930-da adını Müasir Sənətlər Tarixi Arxivi olaraq dəyişdirdi ve Müasir Senetler Tarixi İnstitutu 8 noyabr 1930-da qapılarını izleyicilerine açmışdır. Yenə 1930-da Bienalin idarəsi Kraliyetin əmri ilə Şəhər Məclisinin əlindən alınaraq dönəmin faşist İtalyan hökümətinin əlinə verildi. Sürətlə genişləyən və sayıları artan təşkilatlar və başçılarının səyləri nəticəsində Bienal fərqli qanunları olan tədbir halını alaraq, bu günkü şəklini almışdır. Van Dongenin əsərləri bu bienalidə sərgilənərək böyük marağa səbəb olmuşdur (Şekil 3).

1930-da əvvelcə iki ildə bir, 1937-dən etibarən isə hər il Beynəlxalq Müasir Musiqi Festivalları da burada keçirilməyə başlamışdır. 1932-də Kino Festivalı, 1934-də Teatr Festivalı, 1938-dən etibarən Sənət Sərgisi bölümündə "Böyük Mükafatlar" verilməyə başlanmışdır.

Venesiya Sahilində Pal azzo del Cinema binasının köhnə və yeni görünüşü:



Şəkil 4. 1937-ci ilden bir görünüş



Şəkil 5. Bu günkü görünüşü

1939-1945. 1942-ci ilin sentyabr ayında İkinci Dünya Müharibəsi səbəbiylə Bienal ara vermişdir. 1943-cü ildən 1945-ə qədər təxirə salınan kino festivalı, 1946-da

Jean Renoirın "Güneylilər" adlı filminin Yazıcılar Jürisi tərəfindən 1946-cı ildə təkrar başladı.

İkinci Dünya Müharibəsindən sonrakı dönəmdən 1973 reformalarına qədər keçən dövr. 1948 - Müharibənin bitməsi ile faşist rejimin məğlubiyətlə nəticələnməsindən sonra, Beynəlxalq Sənət sərgisi görkəmli bir təbiət sərgisi ilə böyük və ciddi dəğişiklik gerçəkləşdirdi. Bienalin sədri sənətşünas Rodolfo Pallucchini ilk sərgini M.Chagall, P.Klee, G.Braque, P.Devaux, G. Ensor, R.Margritte kimi rəssamların əsərlərindən ibarət sərgi ilə yeni dönəmi açdılar. Eyni zamanda P.Picassonun retrospektif sərgisi və Peggu Guggenheim kolleksiyonundan 73 sənətçinin 136 əsəri sərgiləndi. Gələcək illərdə ancaq avangard sənətçilər mükafatlandırılırdı. 1952-də Dafy, 1954-də M.Ernest və J.Arp mükafatlandırılmışdır.

1948-1954-cü illərdə yenə Rodolfo Pallucchinin liderliği neticəsində Bienalin sənət sərgiləri çağdaş və avangard əsərlərin müşahidəcisi olma xüsusiyətini qazandı. 1950-ci ildə Birləşmiş Millətlər Pavilyonunda C.Pollock, A.Gorky və ilk dəfə De Kooningin əsərləri sərgiləndi. 1952-də isə A.Calder, Gran Premio di Scultara mükafatını qazanan Amerikalı ilk sənətçi ünvanını əldə etdi. 1949-da sahildəki arena genişləndirildi, daha sonralar adı Leone d'oro (Altın Aslan-Şərəf mükafatı) olaraq dəyişdirilən Leone di San Marco fikri ortaya atıldı və Henri-George Clouzot tərəfindən Manona mükafat verildi.

Musiqi və Teatr Festivalları da 1947-yə qədər ara verdikdən sonra təkrar təkrar keçirilmişdir. 1950-də Fovist, Kubist, Futurist sənətçilər, 1952-de İtalyan Divisionist (Previati, Pelizza da Volpedo, Segantini vs. sənətçilər) və Fransız Puantilistleri (Pissaro, Signac və Seurat) Bienalde yər aldılar. Mücərrəd Ekspresyonistlər, Pop Sənəti sənətçiləri və Amerikan Pavilyonu Jackson Pollockun 'Action Paiting'i isə 1960-larda tədbirdə yer aldılar. Carlo Scarp 1948-dən 1972-yə qədər Bienalin sərgi məkanlarına önemli dəstək vermişdir. 1951-də hökümət müharibədən sonra ilk dəfə yeni idarə heyəti təyin etdi.

1950-də kino və musiqi sahəsində də çox uğurlu addımlar atıldı, Mostra del Cinema- Yapon kinosunun qərbə açıldığı ilk film olaraq tarixə kəçən Akira Kurusawanın "Rachomon" adlı filmi Altın Aslan mükafatına layiq görüldü. Beynəlxalq Çağdaş Musiqi Festivalında, Stravinskynin "The Rake's Progress" (Rakenin İnkişafi" dünya primierasını gerçəkləşdirdi. Bu uğura rəğmən 1953-cü ildə Mostra del Cinema: Altın Aslan mükafatını qazanan film olmamışdır. Fellini (İ.itelloni), Mizoguchi, Carne, Houston Gümüş Aslan mükafatını aldılar.

1954 tarixində isə Bienalin ana mövzusu sürrealizm olmuşdur. Dönəmin bir çox sürrealist sənətçilərinin əsərləri sərgilənirkən, Venesiya Bienalinin grafik sahesində böyük mükafatı Barselonalı (İspanya) rəssam və heykəltəraş Joan Miro (1893-1983) almışdır.

Venesiyada San Giorgio Adası "Japon No Tiyatro" oyununun Avropaya ilk qovuşma məkanı olaraq tarixə keçdi. Mostra del Cinema-Altın Aslan mükafatı Castellaninin "Romeo və Juliet" filminə verildi.Ənyüksek mükafatı alan bu filmin rəqibləri, Fellinini "La Strada" və Viscontinin "Senso" filmleri isə Gümüş Aslan mükafatlarını aldılar. 1955-də Mostra del Cinema: Carl Theodor Dreyerin "Ordet" adlı filmi Altın Aslan mükafatınıaldı. Hemin il Musiqi Festivalında isə George Gershwininin "Porgy and Bess" dünya premierası keçirildi. 1956-cı ildə kino sahəsində



Şəkil 7. Andy Warhol "Marlinlər"1962



Şəkil 6. Riçhard Hamiltonın "Günümüz Evleri..."1956


bəzi dəyişikliklər aparıldı, belə ki, bundan sonra Mostra del Cinema mükafatı üçün filmələrin tədbirə qatılan ölkələrin təyin edilməsinə görə deyil, filmlərin bədii özəlliyinə görə seçilərək festivalda nümayiş etdirilməsinə qərar verildi. Hemin il San Marco Bazilikasında (San Marco meydanında yer alan Bizans memarlıq abidəsi bizim eranın 828 ilində inşa edilmişdir), Stravinskinin "Canticum Sacrum" (Sağrı Sümüyünün Nəğməsi) filminin dünya premierası keçirildi.

1957-ci ilin oktyabr ayında hökümət gələn kəskin tənqidlərdən dolayı idarətmə qurumunu ləğv etdi. Hind kinosunu Avrupada tanıdan Satyait Rayın "Aparajito" adlı filmi Altın Aslan mükafatını aldı. 1958'də isə Enrico Baj (1924-2003 İtalya), (1922 – 1986 İtalya) və Jasper Jons (1930 ABD) vs. İtalyan və digər xarici ölkələrin gənç sənətçilərin əsərlərindən ibarət bir sərgi təşkil olundu. 1959-cu ildə də yenə kino önə çıxaraq, Mario Moricellinin "La Grande Guerra" və Roberto Rosselininin "II Generale Della Rovera" adlı iki film Altın Aslan mükafatını almışdır.

1960-cı illerdə kino yenə sürətlə inkişaf etməyə başlayır, bir birinin ardınca əldə edilən uğurlar diğər sənət sahələrini sıxıştırıb çıxrtmaktadır. Xalqın kinoya olan marağı get gedə artmaqdadır. 1961-də Mostra del Cinema-Alain Resnaisinin "L'nnee derniere a Marienbad" adlı film, 1962'də isə Andrey Tarkovskynin "İvanın Uşaqlığı" və Valerio Zurlininin "Cronaca Familiare" filmləri Altın aslan mükafatını aldılar.

1964-cü ildə Amerikalılar San Gregerioda Birleşik Devlətlər Konsolluğunun binasında Pop Art sənət cərəyanını Avropaya tanıtdılar (Şekil 6,7). Hemin il Mostra del Cinema:Michelangelo Antonioninin "II Deserto Rosso" filmi Altın Aslan mükafatını aldı. 1966-da isə yenə film ödülləri öne çıxdı. Bu dəfə Altın Aslan mükafatını Gillo Pontecorvonun "La Battaglia di Algeri" filmine verildi. Mostra del Cinema:Michelangelo Antonioninin "II Deserto Rosso" filmi Altın Aslan mükafatını aldı. 1966-da isə yenə film ödülləri önə çıxmışdır. 1967-ci ildə Luis Bunuelin "Belle de Sour (Gündüz Kefi) filmi Altın Aslan mükafatını aldı.


İkinci dünya savaşından sonra, 1960-cı illərdə bütün dünyada radikal və tənqidi bir mübarizə dili hər sahədə olduğu kimi incəsənətdə də hakim olmuşdur. Güney Amerikadan Doğu Avropaya qədər uzanan bu yeni dönəm bütün dünyanın artıq fərqli bir çöhrədə inkişafına səbəb olmuşdur. 1968-1970-ci illərdə yaşanan siyasi sarsıntılar, iqtisadi çöküntü, şiddə olayları sənətin fərqli, siyasi içəriyi ağır basan mövzulara meyl etdiyi açıq görülməkdədir.



Şəkil 8. Damien Hist "Ölü İnək"

1968'lerde tələbə protesto və mitingləri Bienalin açılmasına mane oldu. Bir müdd ət qurumda dəyişikliklər həyata keçirildi, neticədə 1973-cü ildə Bienal yeni nizamnaməsini qəbul edərək bəzi dəyişikliklər qanunlaşdırılmışdır.1968'də məlum hadisələr nəticəsində Bienalde kriz yaşanmışdır. Böyük mükafatlar leğv edilmiş, monoqrafik sergiler yerine daha sıx temalı sərgilər təşkil edilmişdir. Bu hadisələrin təsiri nəticəsində Bienalin tarixində ilk dəfə siyasi mövzulu tədbirlər keçirilmişdir. Məsələn; 1974-cü ildəki tədbirdə Agusto Pinochetin diktatorluğunu sənət vasitəsiylə protesto etmək məqsədiylə Bienalin tamamı Çiliyə həsr edilmişdir. Venesiya Film Festivalının Altın Aslan mükafatları da tekrar verilməyə başlamışdır.

Postmodern sənət get gedə artan müxtəlifliyi və populyarlığı ilə Bienaldə diqqət mərkəzinə çevrilmişdir. 1972'dən başlayaraq Beynəlxalq sənət sərgisi bir mövzü üzərinə açıldı. Məsələn: 1972-ci ildə Bienalin mövzusu "Opera o Comportamento" ("Çalışma və ya Davranış") olmuşdur. 1973'də Parlament, təşkilatın yeni nizamnaməsini qəbul etdi. Bu ildən də başlayaraq tədbirə Rəqs də əlavə edildi və yeni bir dönəmə girmiş oldular.




9. İlya Kabakov Enstalasiya.1990

1980-ci illərdə dünya sənət tarixində sonralar, 'aktual' sənət adını almış, daha çox siyasi temalı yeni sənət ortaya çıxmışdır. 1980'də Archille Bonito Oliva və Herald Szeemann (sənət kritikləri) yeni sənəti araşdırmaq məqsədiylə "Alberto" isimli bölümü qurdular. Bienalin baş sərgisi fərqli ölkələrdən ancaq Berlində yaşayan sənətçilərin əsərlərindən ibarət idi. Guidecca adasında Fluxus qrubunun əsərləri sərgiləndi. Arsenaledəki 'Aperto' bölümündə Amerikan sənətçi qrublarının 'Grand Fary' AIDSmövzulu əsəri dini təriqət üzvləri tərəfindən protesto edildi. Eyni zamanda Britaniyalı sənətçi Damien Histun plexiglass qutunun içində ölən inəyi təbiet səvərlər tərəfindən protesto edildi (Şəkil 8). Jeff Koons həyat yoldaşı və özünün polychrome heykəli ilə sərgiyə qatıldı. Bernd və Hill Becher, Giovanni Anselmo, Anish Kapoor mükafatlandırıldı.

İtalyan sənətşünası Giovanni Carandente 1988-1990-cı illərdə tədbirin idareçiliyini gerçəkləşdirmişdir. 1993'deki Bienalinin təşkilatçısı Bonito Oliva oldu. 45 müxtəlif ölkələrdən sənətçilər katıldı. Bunlardan: F. Bacon, John Cage, Peter Greenaway, Hans Haakc, İlya Kabakov gibi çağdaş senetçiler səciyyəvi xüsusiyətləri ilə seçilən əsərləri böyük uğur qazandı (Şəkil 9).


1990-cı illərdə Sovet İttifaqının parçalanması ilə siyasət və incəsənət arasında köklü dəyişikliyə yol açdı. Sosyalist blokuna daxil olan ölkələrdə, xüsusiylə də Sovet İttifaqına bağlı ölkələrdə bu süreç daha da kəskin yaşandı. Çünkü 70 il müddətində bu xalqlar bir sosyalizm ümüdi ilə yaşamışdır. İttifaqın 1990-ci illərdə çökməsi ilə bu ümüd anlayışı tamamən parçalanmış oldu və sənətçilər arasında kəskin içtimai və mədəni dəyişikliklər baş verdi. Bu dəyişikliklər sənətçilərən yaradıcılığında sərt

keçişlerin yaşanmasına səbəb oldu. Bu köklü dəyişikliklərin ən bariz nümunələrini bu ölkələr üçün yeni, fərqli sənət tədbirlərində sərgilədikləri sənət tədbirlərində sərgilədikləri sənət əsərlərində görülməkdədir'4. Bunlara örnək olaraq Venesiya bienallerində açdıqları pavilyonları göstərə bilərik: Rusiya, Ukrayna, Azerbaycan, Gürcüstan vs.



Şəkil 11. İrina Naxova, Enstalasya.

1995-ci ildə Bienalin 100 illik tarixinə həsr edilmiş tədbir keçirilmişdir. Məşhur Fransız kuratoru Jean Clair'in düzənlədiği 'Identity and Otherness- Kimlik və Ötəkilik" adlı sərgi, bienalin ən böyük sərgisi olmuşdur. Bu yüz ildə yaşanan zulmü gözlər önünə sərən Clair'in bu sərgisində, bir çok sənətçinin Birinci və Ikinci Dünya Savaşına vərdiği cavabları əks etdirən əsərlər yer almışdır. 1999-cu ildə 48-ci beynəlxalq sənət sərgisi Arsenalın Artiglerie, Isolotto, Tase, Gaggiandre kimi tarixi məkanlarda da sərgilər, tədbirlər həyata keçirilmişdir. Rəqs, musiqi, teatr (DMT) qısadılmış adı altında canlı şovlar üçün yeni sektorlar yaradıldı. İyul ayından oktyabr ayına qədər 21 konsert-şov proqramları təşkil edilmişdir. 1999 və 2001 tarixleri arasında iki il Harald Szeemannın rəhbərliyində Bienale asya və doğu Avropadan her zamankından daha çox gənç sənətçilər çağrılmış, Arsenaldə yeni bərpası bitmiş bölümlərdə sərgi açıldı (Şəkil 10-11).



Şəkil 10. Ağa Hüseynov, Enstalasya. Azərbaycan

Bienallerin önəmi və məqsədi . İki ildə bir gerçəkləşdirilən bienal tədbirləri, bu gün get gedə önəm qazanan çağdaş sənət hərəkətləri içində, sərgilərə gətirdiyi yeni sərgi anlayışı və beynəlxalq tədbir xüsusiyəti ilə əhəmmiyət daşımaqdadır. Hələ 20-ci əsrin başlarında bienalin esas məqsədi dünya ölkələrindəki sənətçiləri bir araya gətirərək, bu sənətçilərin həm özlərini, həm də əsərlərini beynəlxalq arenada tanıtmaq olmuşdur. Çünkü, o illər sənətin bütün sahələrinin sürətlə inkişaf etdiyi, birbirinin ardınca yeni cərəyanların ortaya çıxdığı bir dönəmdir. Bundan başqa Sənaye İnqilabı nəticəsində məhsul bolluğu və yeni istehsal olunanların Dünya Fuarları və bienallər vasitəsi ilə dünyaya tanıtmaq və satışını həyata keçirməyin ən asan yolu olmuşdur. Ümumiyətlə dünyada bienal inkişaf ədərək sosyal, ekonomik və mədəni sahədəki uğurları səbəbiylə ölkənin turizm stratejilərində əhəmmiyətli yer tutmağa başlayan çağdaş sənət hərəkətlərinən bienallər çərçivəsində incələnməsi sənət-turizm bağlantısına müsbət təsir göstərdiyi qənaitində idilər.

Eyni zamanda 20-ci əsrin başlarından ehtibarən hər ölkə öz milli mədəniyətini, tarixi abidələrini tanıtmaq və istehsal etdiyi məhsulları global dünya bazarına çıxartmaq üçün rəsmən bir rəqabətə girmişdilər. Bienallər bu rəqabəti beynəlxalq sənət və ticarət fuarlarını model alan tədbirlər üçün çox əlverişli bir məkana

[4]Mehdiyeva A.T. "1960'larda Sovyetler Birliğinde Sosyokültürel Ortam" The Journal of Academik Social Science Studies.5-5,209-225,İstanbul,(2012). Doi Number :http://dx.doi.org/10.9761/jasss_154

çevrilmişdir tədricən. Bu məqsədlə bienal çərçivəsində sərgi məkanını, bienalin keçirildiyi şəhərlərin önəmli tarixi məkanlarına yaymışdılar. Gələn izləyicilər əllərində xəritələələ tədbiri izləmək üçün bu məkanlara getmək məcburiyətində qalırdılar. Beləliklə, sənət görməyə gələn yerli və xarici qonaqlar sənəti izlərkən, şəhərin xarakteristik tarixi və çağdaş məkanlarını da görmüş olurlar. Sergini gəzmək üçün şəhərə gələn qonaqlar bir növü turistə çevrilir və bu da sənət və turizm arasındaki münasibətdə önəmli bir rol oynayır. Bundan başqa fərqli mədəniyətlərdən gələn sənətçilər ilə sənəti təqib edən kəsim; qaleri sahibləri, koleksiyonərlər və sənətsevərlər arasında qarşılıqlı bir münasibət və əlaqe yaranmış olur.

Ümumiyətlə hansı şəhərdə bienal tədbirləri təşkil olunursa, o şəhərin adı ilə adlandırılır bienallər. Mes: Venesiya Bienali, İstanbul Bienali, Tokio, Şanxay, Paris vs. Bu ölkələrin qlobal arenada çağdaş sənət sahəsində söz sahibi olmaq istəyən, beynəlxalq aləmdə önə çıxmağa cəhd göstərən şəhərlərində təşkil olunur bu kimi tədbirlər. Beləliklə ölkənin sərhədlərindən kənara çıxmayan çağdaş sənət bu cür tədbirlər vasitəsi ilə beynəlxalq arenaya çıxmaq imkanı əldə etmişdir. Bu məqsəd ətrafında şəkillənən tədbirlər milli və beynəlmiləl səviyyədə sənət alışverişini canlandırırkən, eyni zamanda yeni cərəyan və həmlələrin ortaya çıxmasına da səbəb olur.

Venesiyada gerçəkləşdirilən birinci bienalin ardından, bütün dünyada sürətlə sayısı artan bienal tədbirləri yerli xalqın qlobal sənət izləyicisinə hitap etmə meyli daşımaqdadır. Sənəti geniş kütlələrin istifadəsinə istiqamətləndirən bir tədbir olmaq məqsədi daşıyan bienallər, izləyicini məlumatlandırmaq, ona günümüz sənətini qavramaq məsuliyətini də öhdəsinə aldığı üçün, tamaşaçı nöqtəyi nəzərindən bir bilgiləndirmə sürəsi də yaratmaqdadır. Qısa bir zaman içərisində aktullaşmağa doğru sövq edilən izləyici də burada əksik bilgisini tamamlamış olur.

Venesiya bienallərinin məkanları. Venesiya Bienali iki hissədən ibaretdir- milli pavilyonlar və kuratorlu layihələr. Bienalin əsas məkanları Giardini baxçası və Arsenale. Arsenale əski hərbi fabrikaların və tərsanələrin olduğu sahə. Kuratorlu layihələrdə isə pavilyonlar və beynəlxalq sərgilər yer almaqdadır. Bienalin rəsmi fuar sahəsi olan Giardini isə sənət üçün ayrılmış böyük bir park və ölkələrin işləri üçün xüsusi olaraq inşa edilmiş pavilyonlar və sahələr var. İştirakçıların sayıları artdıqça bienal şəhərin diğər makənlarına, bağlar və pavilyonlardan başqa müzeylərə, böyük depolara, müxtəlif fabrika sahələrinə, palazzolara və kilisələrə yayılmağa başlamışdır.

Nəticə və dəyərləndirmə. Ümumiyətlə, Bienallər dünya miqyasında son dərəcə əhəmiyyət kəsb edən beynəlxalq bir tədbirdir. Alışıq olduğumuz klassik sənət tədbirlərinin sərhədlərini aşaraq, yeni sərgi anlayışı gətirməklə bərabər, tədbirin keçirildiyi ölkələrin iqtisadiyatına və turizmin inkişafına da müsbət təsir göstərməkdədir. Bienaller dünya sənətçilərinin həm birbirlərini tanıyaraq ünsiyyət qurmaq baxımından, həm də sənətdə ortaya çıxan yeni cərəyanlar, yeni texnikalar, üsluplar vs. dünyada rahatlıqla tanıtmaq üçün son dədərəcə əlverişli bir məkandır. Bundan başqa, şəhərin fərqli yerlərinə dağıdılmış bədii tədbirlərin keçirildiyi bienal məkanları, şəhərin tarixi yerlərinin, çağdaş məkanlarının xarakteristik xüsusiyətlərinin dünyanın fərqli ölkələrindən gəlmiş ziyarətçilərə tanıdılması da bienallərin ölkənin turizm ticarətinin inkişafına böyük təkan verdiyi görülməkdədir.

Fərqli mədəniyətlərdən gələə sənətçilər, sənətşünaslar, kolleksiyonerlər və sənətsevərlərin izlədikləri yeni janr və cərəyanları yozumlayaraq qarşılıqlı mübahisələri, bir növü sənətin inkişafı və kürəsəlləşməsinə də yardım etməkdədir. Eyni zamanda bienal tədbirlərinin böyük bir qismi siyasi mövzulara, terör kimi günümüz hadisələrinə, haqsızlığa, ekonomik çöküntülərə, ekolojiyə sənətçilərin münasibət bildirərək sənət yolu ilə cəmiyətə bir mesaj göndərmələri baxımından son dərəcə əlverişli bir əyləm ortamıdır.

1990'dan sonra keçmiş Sovet İttifaqina bağlı ölkələrin sürətlə dünya arenasına çıxmaları, yaxın şərq ölkələrinin başına gətirilən müsibətləri, torpaqlarında oynalılan haqsızlığı ələ alaraq dünyaya mesaj göndərərək etiraz səslərini sənətləri vasitəsiylə dünyaya çatdırmağa çalışırlar.

Bildiyimiz kimi istər ölkə miqyasında olsun, istərsə də beynəlxalq miqyasda bu gün təşkil olunan müasir sərgi ve sənət aksiyonlarında cəmiyətdəki aktual məsələlər gündəmə çıxarılmaqdadır. Ekologiyadan siyasətə, əsrimizin bəlasına çevrilmiş terror, savaş, şəxsi problemlərdən kürəsələ, sənətin (çox təəssüf ki) pulla satın alınacaq qədər aşağı səviyələrə enmesi və s. mövzular bu gün bienallərin ana probleminə çevrilmişdir. Sənətçilər bu kimi məsələləri sənətləri vasitəsiylə səslərini dünya çatdırmağa çalışırlar.

Ədəbiyyat:

1. www.labiennale.org/en/art/archive/(inceleme tarixi 19 fevral 2016)
2. Venedik Bienali'nin 100. Yılı Kutlanıyor. Kültür, Ss. 14 1995.www.cumhuriyet.com.tr (inceleme tarixi 10 mart 2015)
3. Sarah Thornton Sanat Dünyasında Yedi Gün, 2008 (inceleme tarixi 25 may 2016)
4. Sezgi Abali. Büyük Tur'dan bienallerine:Venedik ve İstanbul. Yüksek Lisans tezleri, 2010(inceleme tarixi 02. Yanvar 2014)
5. www.iksv.org/tr/arsiv/p/1/506(inceleme tarixi 16 sentyabr 2015)
6. Burcu Pehlivanoğlu. 1980 Sonrası Türkiye'de Sanat: Dönüşümler
7. Doktora Tezi, İstanbul-2009
8. www.ksv.org/tr/arsivp/1/645(inceleme tarixi 05 mart 2016)
9. www.tr.wikipedia.org/wiki/Venedik Bienali (inceleme tarixi 10 avqust 2016)
10. www.arkitera.com/etiket/1013/venedik-bienali(inceleme tarixi 10 mart 2015)
11. www.arkitera.com/etiket/7135/venedik-mimarlik-bienali(inceleme tarixi 12 oktyabr 2016)
12. www.iksv.org/tr/venedikbienali (inceleme tarixi 20 iyun 2015)

Тарлан Мехдиева

История Венецианской биеналле

Резюме

Автор этой научной статьи проанализировала историю венецианской биеналле. Своеобразным методом, исследователь продемонстрировал путь развития биеналле и его важное значение в современном мировом искусстве. Таким образом в биеналле кроме изобразительного искусства со времнем вошли - кино, театр и музыка. Это способствовало развитию художественного

разнообразия биенали. Главная мысль автора данной статьи заключается в том, что в XX веке Венецианская Биеналле, вобрав в себя различные виды искусства, так же смело интегрировало не только в мировое искусство, но и в политику.

Ключевые слова: Венецианская биенналле, международный, современный, актуальное искусство, XX век, политика, экономика.

Tarlan Mehdiyeva

History of Venice biennale

Summary

As it is known , Venice Biennale had a positive impact on the development of contemporary world art. In this article, both universality of Biennale and its role in the development and recognition of avant-garde art movements are discussed. After a brief informing on the history of Venice Binennale, this article also gives information to reader about the enrichment of Biennale which took place by inclusion of some areas, outside of descriptive art, such as cinema, theatre, music in Biennale and about the positive effects of these developments. On the other hand political issues has gained importance in Venice Biennale by the reason of reforms made after II. World War and of the political turmoils in 1960s and 1990s. The base line of this article consists of the integration of Venice Biennale, which incorporates several areas of art into itself, with politics and economics of contemporary world art, and with the twentieh century developments.

Keywords: Venice Biennale, international, twentieth century, contemporary, current, art, politics, economics.

Məqalənin redaksiyaya daxil olma tarixi: 11.05.2017
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 18.05.2017
Məqalənin çapa qəbul olunma tarixi: 08.06.2017
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Mehriban Novruzova
ADMİU-nun Elmi Şurasının 11 iyul 2017-ci il, 09 saylı qərarı ilə çap olunur.